# "Kloun BizZ"




Azərbaycan Dövlət YUĞ Teatrında yeni tamaşanın premyerası olacaq. Rejissor Mikayıl Mikayılov rumın dramaturqu Matey Vişnekin "Qoca koun tələb olunur" pyesi əsasında "Kloun BizZ" adlı tamaşa hazırlayıb. Tamaşanın quruluşçu rəssamı Umay Həsənova, rejissor assitenti Xaqani Əliyevdir. Rejissor tamaşanın janrını feeriya-makkabr kimi müəyyənləşdirib.

Səhnə əsərində Yuğ Teatrının aktrisaları Natəvan Qeybani, Zümrüd Qasımova və Təranə Ocaqverdiyeva çıxış edir. Tamaşanın premyerası mart ayının 10-a - Milli Teatr Gününə nəzərdə tutulub.

Matey Vişnekin pyesləri bu gün dünyanın bir çox ölkələrinin teatrlarında tamaşaya qoyulur. Rumın yazarı, jurnalisti və dramaturqu Matey Vişnek rumın dilində yazılmış iki romanın, yüzlərlə şeirin və dünyanın dörd bir yanında uğurla tamaşaya qoyulan onlarla müztəlif həcmli pyeslərin müəllifidir.

Dramaturq Fransanın və Rumıniyanın dövlət mükafatlarına, Fransa dram müəllifləri və bəstəkarları cəmiyyətinin Avropa mükafatına (2009), Rumıniya Yazıçılar Birliyinin Dram mükafatlarına (1999, 2002, 2007), Rumıniya Akademiyasının Dram mükafatına (1998), Avinyon-Off Mətbuat mükafatına (1995, 1996, 2005, 2009) və digər mötəbər mükafatlara layiq görülüb. Yazarın "Qoca kloun" pyesi 1991-ci ildə Ruminiya Teatr Cəmiyyəti tərəfindən ilin ən yaxşı pyesi seçilib. Göründüyü kimi, Vişnekin yaradıcılığı həmişə diqqət mərkəzində olub və yüksək qiymətləndirilib. Ancaq vətəni Ruminiyada Vişnek yaradıcılığındakı sosial və siyasi motivlərə görə təqib olunub, maneələrlə üzləşib. 10 il ərzində cəmi bir pyesi tamaşaya qoyulan Vişnek Fransaya köçdükdən, fransızca yazmağa başladıqdan sonra böyük nüfuz və dünya şöhrəti qazanıb. 1989-cu il inqilabından sonra Rumıniyada da yazıçıya münasibət dəyişib. Bu gün Vişnek rumın teatrının əsərləri ən çox tamaşaya qoyulan dramaturqlarındandır. Hətta 1996-cı ildə Timişoara Milli Teatrı Vişnekin pyesləri əsasında hazırlanan tamaşalardan ibarət teatr festivalı keçirib. Festivalda 12 müxtəlif teatr truppasının tamaşaları nümayiş olunub. Əsərləri Fransa, Rumıniya, Moldova, ABŞ, Finlandiya, Danimarka, Türkiyə, Polşa, İtaliya, Portuqaliya, Braziliya, Argentina, Yaponiya, Böyük Britaniya, Almaniya, İspaniya, İran İslam Respublikası, Ukrayna, Kanada, makedoniya, İsveç, Belçika, Bolqariya, Macarıstan, Serbiya və digər ölkələrin müxtəlif teatrlarında dəfələrlə tamaşaya qoyulub.

Vişnekin "Qoca kloun tələb olunur", "Bu ölkə sənin qədrini bilir", "Düşünürsən ki, döyəcəklər?" "Mənim heç yerim ağrımırdı və mən ölümü gözləyirdim", "Kofe, bir az süd və bir stəkan su", "Welcome America" ("Xoş gəldin, Amerika"), "Avtostop" "Sən Allahsan, başa düşdün?", "Təkər üstündə ürək", "Çexov mexanizmi", "Nina, yaxud qağayı müqəvvasının kövrəkliyi", "Pəncərə altındakı atlar", "Çörəklə dolu paketlər", "Madoksla üç gecə", "Qapı", "Bir qanadlı insan", "Dünya proqresi anamın dodaqlarında həqiqət kimi səslənmir", "Panda ayılarının Frankfurtda rəfiqəsi olan saksafonçunun danışdığı macəraları" kimi pyesləri var.

Yuğ Dövlət Teatrının rejissoru Mikayıl Mikayılov M.Vişnekin əsərinə fərqli quruluş verib. Əsərdəkindən fərqli olaraq, YUĞ teatrının tamaşasında klounlar qadınlardır.

Bu əhvalat kiminsə verdiyi elana görə iş tapmaq ümidi ilə gəlmiş üç kloun haqqındadır. Onlar keçmişi yada salır, zarafatlaşır, kədərlənir, arzularla ovunurlar!.."

Hər biri sübut etməyə çalışır ki, hələ hər şey bitməyib, hələ də bu dünyada kiməsə gərəkdirlər.

**Altay**

Kaspi 2020.- 5 mart.- S.11.